# Azərbaycan

Fevral 2023-cü il

BMT QAK 1992-ci ildən qaçqınların, sığınacaq axtaranların, məcburi köçkünlərin və vətəndaşlığı olmayanların himayəsi və onlar üçün həll yollarının tapılmasında hökumətə dəstək göstərir.

Qaçqınların inteqrasiyası və dolanışıq təminatı proqramları ilə yanaşı, BMT QAK məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz, könüllü və ləyaqətli qayıdışının təşviqi istiqamətində işlərə başlayıb.

BMT QAK həmçinin "Bir ad altında fəaliyyət" təşəbbüsü çərçivəsində inkişaf, humanitar yardım və ətraf mühit sahələrində digər qurumlarla sıx əməkdaşlıq edir.

## ƏHALI STATISTIKASI – 1 iyul 2022-ci il tarixə*

| | |
|---|---|
| Qaçqınlar | **6466** |
| Sığınacaq axtaranlar | **121** |
| Vətəndaşlığı olmayanlar | **3585** |
| Məcburi köçkünlər | **654839** |

### Üç əsas mənşə ölkəsi*

**Qaçqınlar**

| | |
|---|---|
| Ukrayna | 4788 |
| Əfqanıstan | 1179 |
| Rusiya | 325 |

**Sığınacaq axtaranlar**

| | |
|---|---|
| Ukrayna | 41 |
| Əfqanıstan | 35 |
| Pakistan | 34 |

**Mənbə: BMT QAK-ın 2022-ci il yarımillik statistik hesabatı

## UKRAYNALI QAÇQINLARIN DURUMUNA REAKSİYA

15 fevral 2023-cü il tarixə olan məlumata görə, Azərbaycanda Ukraynadan olan 4928 qaçqın və qaçqınlığa bənzər vəziyyətdə olan şəxs vardır.

Aidiyyəti qurumlarla əməkdaşlıq edərək, BMT QAK Ukraynadan olan qaçqınları mövcud proqramlara, ilk növbədə hüquqi yardım və məsləhət proqramlarına daxil edir. Qiymətləndirmə aparılaraq həssas qruplardan olanlara BMT QAK-dan nağd pul yardımı ayrılır, eyni zamanda aidiyyəti orqanların tövsiyəsi ilə müəyyən şəxslərin **müvəqqəti və ya daimi yaşama icazəsi üçün dövlət rüsumları** ödənilir.

**Ən həssas qruplara dəstək:** 2022-ci ildə BMT QAK Ukraynadan olan həssas qruplara aid 110 qaçqına nağd pul yardımı göstərib və 5 qaçqın üçün hüquqi yardım təşkil edib.

**Koordinasiya:** BMT QAK-ın təşəbbüsü ilə 2022-ci ilin iyun ayında aparılmış danışıqların nəticəsi olaraq, Dövlət Miqrasiya Xidməti qaçqınlığa bənzər vəziyyətdə olan ukraynalıların səhiyyə xidmətlərinə çıxışı üçün onlar barədə məlumatları İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə paylaşır.

**İnklüzivlik:** BMT QAK ölkədəki ukraynalıların əsas xidmətlərə, əsasən səhiyyə, təhsil və məşğulluq xidmətlərinə çıxışını təmin etmək üçün müvafiq orqanlarla işləyir.

## ƏSAS MƏQAMLAR

### 27628 məcburi köçkün

2022-ci ildə BMT QAK-ın maliyyələşdirdiyi layihə çərçivəsində mina və partlamamış sursatlarla bağlı məlumatlandırma sessiyalarında iştirak edib

### 60-dan artıq gənc qaçqının

ali təhsil almasına BMT QAK "DAFI" (Albert Eynşteyn Alman Akademik Qaçqın Təşəbbüsü) Təqaüd Proqramı və ya illik təhsil haqlarının ödənməsi yolu ilə dəstək göstərib.

### 3179 məcburi köçkün

2022-ci ildə BMT QAK-ın hüquqi məsləhət və hüquqi yardım proqramı ilə ödənişsiz hüquqi yardımdan yararlanıb.

### Vətəndaşsızlıq

2022-ci ildə **65** nəfər vətəndaşlıq əldə edib, **212** nəfər isə vətəndaşlıq almaq üçün aidiyyəti qurumlara müraciət edib.



## GƏNC QAÇQINLARIN İŞLƏ TƏMİN EDİLMƏSİ

Əfqanıstandan olan gənc qaçqın Nilab Zeynəddin Bakı Tibb Kollecini müvəffəqiyyətlə bitirdikdən sonra Leyla Tibb Mərkəzində tibb bacısı kimi işə başlayıb. Nilabın illik təhsil haqları, nəqliyyat və ləvazimatların alınması ilə bağlı xərcləri BMT QAK tərəfindən ödənilib. 21 sentyabr 2022-ci il tarixdə dərc edilmiş press-relizə buradan daxil ola bilərsiz.

## Başlıca prioritetlər

- **Himayə:** BMT QAK siyasət, praktika və qanunların beynəlxalq standartlara uyğunlaşdırılması üçün aidiyyəti qurumlar və maraqlı tərəflərlə iş aparır.
- **Əraziyə giriş:** BMT QAK ölkə ərazisinə giriş şərtlərinə və beynəlxalq hüquq və standartlara uyğun olaraq geri qaytarılmama prinsipinə riayət olunmasına nəzarət edir.
- **Sığınacaq prosedurları:** BMT QAK müraciət edənlərə sığınacaq verilməsi prosesini monitorinq edir və prosesin keyfiyyətinin artırılması üçün beynəlxalq standartlara dair tövsiyələr verir.
- **Həll yolları**: BMT QAK sığınacaq axtaranların və qaçqınların dolanışığı, sığınacaq prosedurlarına çıxış və inteqrasiyası üçün, eləcə də məcburi köçkünlərin təhlükəsiz, ləyaqətli və könüllü qayıdışı üçün hökumətlə əməkdaşlıq edir. BMT QAK məcburi köçkünlərin qayıdışı ilə əlaqədar mənzil, torpaq və əmlak daxil olmaqla müxtəlif məsələlər üzrə hökumətə tövsiyələr və ekspert rəyləri təqdim edir.
- **Inteqrasiya:** Hüquqi statuslarının olmamasına baxmayaraq, qaçqınlar və sığınacaq axtaran şəxslərin əmək bazarına, ödənişsiz ibtidai və orta təhsil və səhiyyə xidmətlərinə qanuni çıxış əldə etməsinə icazə verilib. Bəzi qaçqın tələbələrin kolleclərdə, universitetlərdə və akademiyalarda təhsil almalarına köməklik göstərilir.

  **Təşviqat:** BMT QAK didərginlər və vətəndaşlığı olmayan şəxslər üçün beynəlxalq standartlara uyğun olaraq himayə və həll yollarını təmin etməkdən ötrü hökumət və vətəndaş cəmiyyəti ilə təşviqat işi aparır. BMT QAK, xüsusilə əsas mənşə ölkələrindən gələn sığınacaq axtaranlar üçün qaçqın kimi tanınma nisbətinin artmasına, qaçqınlara hüquqi statusun verilməsi və əlavə himayə formalarını tətbiq edən qanunvericilik dəyişikliklərinin qəbul olunmasına çalışır.

## Tərəfdaşlarla iş

- BMT QAK zorla didərgin salınanlar, münaqişələrdən ziyan çəkənlər və vətəndaşlığı olmayanların himayəsi üzrə tədbirləri əlaqələndirmək üçün aidiyyəti qurumlar və vətəndaş cəmiyyəti ilə işləyir.
- **Xarici əlaqələr:** BMT QAK didərginlik və vətəndaşsızlıqla bağlı vəziyyətin ciddiliyi və miqyası və öz mandatı barədə məlumatlılığın artırılmasına, eləcə də auditoriyasını genişləndirməyə çalışır. BMT QAK-ın yanaşması Dayanıqlı İnkişaf Gündəliyində və Qaçqınlar üzrə Qlobal Sazişdə yer alan digər subyektlərin humanitar və inkişaf səyləri ilə uzlaşır.

## Məcburi köçkünlər

- 9 noyabr 2020-ci il tarixdə Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, BMT QAK-ın qayıdışa nəzarət rolunu həyata keçirəcəyi gözlənilir. BMT QAK ilk növbədə hüquqi və siyasi tövsiyələrlə, eləcə də təhlükəsiz və könüllü qayıdış üçün təşviqatla məşğul olacaq.
- BMT QAK təhlükəsiz və könüllü qayıdışa əlverişli şəraitin yaradılması üçün minalar barədə maarifləndirmə və icmaların səfərbər edilməsi layihələrini maliyyələşdirir.

## Vətəndaşsızlıq

- BMT QAK qeydə alınmış vətəndaşlığı olmayanlara vətəndaşlıq verilməsi barədə Vətəndaşsızlıq Məsələləri üzrə Yüksək Səviyyəli Seqmentdə verilən vədi yerinə yetirmək üçün Hökumətə köməklik edir.

## BMT QAK Azərbaycanda

**Heyət:**

Milli heyət - 28

Xaricilər - 4

Köməkçi heyət - 4

**İdarələr:**

Bakı şəhərində Nümayəndəlik

Bakı şəhərində Qəbul Mərkəzi

## Maliyyə məlumatı (fevral 2023-cü il)

**Maliyyə ehtiyacları**

7.4 M $




BMT QAK özünün 2023-cü il qlobal proqramları üçün şərtsiz və qismən şərtli ayırmalar etmiş donorlarlara göstərdikləri dəstəyə görə təşəkkürünü bildirir. 10 milyon ABŞ dolları və daha çox ayırmalar etmiş donorlar aşağıdakılardır:

**İsveç | Norveç | Danimarka | Niderland | Almaniya | İsveçrə | Belçika | Irlandiya | Italiya | BK | Yaponiya | Koreya Respublikası | Fransa** | Kanada, Italiya, Almaniya, Yaponiya, Luksemburq, Niderland və İspaniyadan olan **özəl donorlar**

BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi özünün 2023-cü il proqramlarına dəstək olan aşağıdakı donorlara təşəkkürünü bildirir.

**Əlcəzair | Avstraliya | Bolqarıstan | Kanada | Estoniya | Finlandiya | İslandiya | Lüksemburq | Malta | Monako | Monteneqro | Yeni Zellandiya | Filippin | Səudiyyə Ərəbistanı | Serbiya | Sinqapur | Tailand | Uruqvay | Özəl donorlar**